## «Heydər Əliyev Mərkəzinin Əsasnaməsi»nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Heydər Əliyev Mərkəzinin fəaliyyətini təmin etmək məqsədi ilə qərara alıram:

1. "Heydər Əliyev Mərkəzinin Əsasnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Heydər Əliyev Mərkəzinin aparatının işçilərinin say həddi 154 ştat vahidi müəyyən edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. cari ilin sonuna kimi Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə bağlı tələb olunan vəsaitin ayrılmasını müvafiq qaydada təmin etsin;

3.2. 2013-cü il və növbəti illər üçün Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsində Heydər Əliyev Mərkəzinin fəaliyyətinin maliyyələşdirilməsi üçün ayrıca sətirlə müvafiq vəsaitin nəzərdə tutulmasını təmin etsin;

3.3. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 oktyabr tarixli 161 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, [1]10, maddə 774) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 oktyabr 2012-ci il**

**Azərbaycan.-2012.- 9 oktyabr.- S. 1.**